Olimpiadada yarışlar 2 qrup üzrə keçirilib. 11-16 yaşlı məktəblilərin yarışdığı A qrupunda 180 şahmatçıdan ibarət 50 komanda, yaşı 11-dən az olan şahmatçıların yarışdığı B qrupunda 150 şahmatçıdan ibarət 61 komanda qələbə uğrunda mübarizə aparıb.

A qrupu üzrə yekun nəticələrə əsasən, Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər şahmat məktəbinin komandası I yerə çıxıb. Şəxsi nəticələrə görə, Respublika şahmat məktəbinin yetirməsi İlkin Rəhimli 16 yaşlı oğlanlar arasında II yeri tutub. Ümumi turnirdə qızlar arasında ən yaxşı nəticəni isə məktəbin digər şahmatçısı Nigar Mustafazadə göstərərək 16 yaşlı qızlar arasında I yeri qazanıb.

B qrupunda Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər şahmat məktəbinin komandası II yeri əldə edib. Şəxsi nəticələrə görə, 10 yaşlı oğlanlar və eyni yaşlı qızlar arasında məktəbin yetirmələri Atilla Eynullayevla Nəcibə Orucova II yerləri tutublar.